

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

8 DEKABR 2024-cü il BAZAR № 271 (8029) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



## Güclü və nüfuzlu ölkəmizin genişlənən əlaqələri

### *Azərbaycan dünyanın əsas yük axını istiqaməti olan Çin-Avropa arasında önəmli aktora çevrilib*

***Dövlət başçımızın xarici siyasətdəki təşəbbüsləri və son illər həyata keçirilən irimiqyaslı infrastruktur layihələri sayəsində Azərbaycan mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilib. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə mühüm töhfələr verən Azərbaycanın rolu gündən-günə artır. Ölkəmiz dünyanın əsas yük axını istiqaməti olan Çin-Avropa arasında əsas körpüyə çevrilib.***

Azərbaycan özünün "balanslı siyasəti" çərçivəsində formalaşdırdığı xarici siyasətinə uyğun olaraq çoxtərəfli diplomatiya əsasında hərəkət edir, ölkənin hər hansı bloka daxil olması əvəzinə çoxölçülü münasibətlərə üstünlük verir. 44 günlük Vətən müharibəsindən sonra həm türk dünyasında, həm də beynəlxalq aləmdə nüfuzunu artıran Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin, xüsusilə Rusiya və Çinin əməkdaşlıq etmək istədiyi ölkəyə çevrilib. ŞƏT-in üzv ölkələri həm coğrafi, həm də iqtisadi baxımdan Azərbaycanla sıx əlaqələri olan ölkələrdir. Ona görə də Azərbaycanla ŞƏT arasında əməkdaşlıq ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir. Çünki ŞƏT regional təhlükəsizlik, iqtisadi inkişaf və mədəni əməkdaşlıqda mühüm rol oynayır və beynəlxalq münasibətlərdə diqqətlə izlənilən bir aktordur.

Həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu ŞƏT 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. Xatırladaq ki, 2022-ci ilin sentyabrında Səmərqənddə keçirilən Zirvə görüşündə Belarusun Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması barədə qərar qəbul edilib. Azərbaycan da qardaş ölkə Türkiyə kimi hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Bununla da ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib.

ŞƏT-in başlıca missiyası və məqsədi, ilk növbədə, mehriban qonşuluq və dostluq münasibətlərinin təmin edilməsi, həmçinin üzv dövlətlər arasında qarşılıqlı etimadın gücləndirilməsindən ibarətdir. Bunlarla bərabər, müxtəlif sahələrdə səmərəli əməkdaşlığın təşviq olunması, regionda sülhün, sabitliyin qorunması, təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində birgə səylərin dəstəklənməsi prioritetləri də diqqət çəkir. Həmçinin ədalətli yeni beynəlxalq siyasi və iqtisadi quruluşun yaradılması da təşkilatın əsas məqsədləri sırasındadır.

Son illərdə ŞƏT-in nüfuzu xeyli yüksəlmişdir. Bu təşkilata daxil olan dövlətlərin dünya iqtisadiyyatında payı 50 faizə yaxındır və maraqlıdır ki, həmin ölkələrdə dünya əhalisinin yarısı (50 faizi) yaşayır. Təşkilat Arktikadan Hind okeanına qədər - Şimaldan Cənuba, həmçinin Şərqdən Qərbə qədər ərazini özündə birləşdirir.

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

ŞƏT-ə daxil olan dövlətlərin dördündə nüvə silahı və sənayesi vardır. Dünyada qlobal problemlərin həllində, təhlükəsizlik məsələlərində bu təşkilatın mövqeyi strateji xarakter daşıyır. ŞƏT beynəlxalq səviyyədə iqtisadi əməkdaşlığın genişləndirilməsini, dünya iqtisadiyyatının dinamik inkişaf etdirilməsini, iqtisadi və maliyyə sabitliyinin gücləndirilməsini dəstəkləyir. Dünya ticarət sisteminin çoxvektorlu olmasının təminatı təşkilatın başlıca hədəflərdir. ŞƏT-ə daxil olan dövlətlərin ümumi ərazisi 35 milyon kvadratkilometrdir və ümumilikdə bu, Avrasiya ərazisinin 65 faizi deməkdir. Əhalinin sayı isə 3,54 milyard nəfərə yaxındır. Bu təşkilatın aparıcı üzvü olan Çin dünya iqtisadiyyatında ikinci mövqedədir, amma ÜDM-in alıcılıq qabiliyyətinə görə isə birinci yerdədir. Hindistan iqtisadiyyatı da dünyada önəmli əhəmiyyət kəsb edir. Təşkilatın 4 üzvündə - Rusiya, Çin, Hindistan və İranda kosmik sənayenin inkişafına ciddi önəm verilir və bu dövlətlər "Kosmos klubu"na daxildirlər.

Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə dövlətimizin başçısı çıxışında Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyətin Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil etdiyini diqqətə çatdırıb. Dövlət başçımızın çıxışında verdiyi mesajlar reallaşan layihələrin irimiqyaslı və şaxəli olduğunu bir daha göstərdi. "Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib. Orta Dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb", - deyən Prezident tərəfdaşlarımız olan dövlətlərlə Orta Dəhlizin rəqəmsallaşması üzərində işləndiyini bildirib. Azərbaycanın Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq niyyətimizi iştirakçıların diqqətinə çatdırıb.

ŞƏT-ə daxil olan dövlətlərin iqtisadi potensialı kifayət qədər yüksəkdir və qarşılıqlı ticarət-iqtisadi əlaqələr üçün çoxvektorlu imkanlar vardır. Ekspertlərin qənaətinə görə, Azərbaycan bu təşkilatla əlaqələri çərçivəsində özünün xarici ticarət dövriyyəsinin strukturunu əhəmiyyətli səviyyədə təkmilləşdirə bilər və xüsusilə qeyri-neft-qaz ixracını diversifikasiyalaşdırmaqda əlavə potensial formalaşdırar. Azərbaycanla belə bir qurum arasında əməkdaşlıq hər sahədə ölkəmizə xeyir verəcək. Əslində Astanada keçirilən Zirvə görüşündə Azərbaycan və Çin Xalq Respublikası arasında strateji əməkdaşlıq sazişinin imzalanması və Azərbaycan, Türkiyə və Pakistan arasında keçirilən üçtərəfli görüş respublikamızın regional və qlobal təsir dairəsini gücləndirəcək. Azərbaycanın ŞƏT-ə üzv ölkələr, xüsusilə Çin, Rusiya və Mərkəzi Asiya ölkələri ilə ticarət əlaqələri Azərbaycanın iqtisadi inkişafına mühüm töhfə verəcək. Azərbaycanın ŞƏT-ə üzv ölkələrlə enerji sahəsində əməkdaşlığı həm ölkənin enerji təchizatı təhlükəsizliyinə müsbət təsir edəcək, həm də respublikamıza öz enerji resurslarını daha geniş bazara təqdim etməyə və enerji infrastrukturunu inkişaf etdirməyə imkan verəcək.

ŞƏT Azərbaycan üçün iqtisadi, təhlükəsizlik, diplomatik və mədəni baxımdan mühüm imkanlar təklif edir. Azərbaycanın ŞƏT ilə əlaqələri ölkənin iqtisadi inkişafına dəstək verəcək, regional təhlükəsizliyi artıracaq və beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə töhfə verəcək. Prezident İlham Əliyevin artıq ikinci dəfə ŞƏT-ə üzv ölkələrin Zirvə toplantısına dəvət olunması və təşkilata üzv ölkələrin dövlət başçıları ilə görüşlər keçirməsi də əməkdaşlığın yüksək səviyyədə olduğunu göstərir.

Əməkdaşlıq istiqamətlərindən biri də, şübhəsiz ki, iqlim dəyişmələri ilə mübarizə, "yaşıl enerji"yə keçidin stimullaşdırılması ilə bağlıdır. Azərbaycan ənənəvi enerji ixracatçısı olsa da, bərpaolunan enerji mənbələrinin diversifikasiyasına böyük əhəmiyyət verir və bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir. Bu sahədə də ŞƏT üzvü olan ölkələrlə əməkdaşlıq genişləndirilə və yeni layihələrin həyata keçirilməsi stimullaşdırıla bilər. Bu baxımdan təşkilatla əməkdaşlıq Bakının uğurla ev sahibliyi etdiyi və böyük nəticələrlə yekunlaşan COP29 konfransının gündəliyi ilə uzlaşır. "Yaşıl keçid", karbon emissiyalarının azaldılması və bərpaolunan enerji mənbələrinin inkişafı təşəbbüsləri populyarlıq qazandıqca, ŞƏT ölkələri bu təkandan bərpaolunan enerji bazarlarını gücləndirmək üçün istifadə edə və COP29-dan sonra da vahid tərkibdə çıxış edərək ekoloji əməkdaşlıqda irəliləyişi nümayiş etdirə bilərlər.

Azərbaycan təşkilatın əksər üzv ölkələri ilə ikitərəfli səviyyədə də yaxşı münasibətlər qurub və bu əlaqələri ildən-ilə uğurla inkişaf etdirir. Dövlət başçımızın təşkilatın üzv dövlətlərinin başçıları ilə təkbətək və geniştərkibli görüşləri keçirilib. Astana sammiti dövlətimiz üçün bir sıra yeniliklərlə yadda qalıb. Bunlara Astanada "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunması, Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin üçtərəfli formatda ilk dəfə Zirvə görüşünün keçirilməsi kimi əlamətdar hadisələr daxildir.

Bütün bunlar uzaqgörən lider kimi böyük nüfuz qazanmış Prezident İlham Əliyevin düşünülmüş düzgün xarici siyasətinin nəticəsidir. Dövlətimizin başçısının mötəbər tədbirlərə dəvət edilməsi təkcə ölkəmizin Şərq ilə Qərb arasında tutduğu vacib coğrafi mövqeyindən irəli gəlmir, həm də bilavasitə Prezident İlham Əliyevin nüfuzu və siyasi uzaqgörənliyi ilə bağlıdır.

**Mustafa KAMAL,**
**"Respublika".**